Qəbələ sürətli inkişafın yeni mərhələsində

2015-ci ildə Qəbələnin sosial-iqtisadi inkişafının yekunlarına dair geniş yığıncaq keçirilmişdir

18 fevral 2016-cı il tarixdə Heydər Əliyev Konqres Mərkəzində Qəbələ Rayon İcra Hakimiyyətinin geniş iclası olmuşdur.

Yığıncağa rayonun idarə, müəssisə rəhbərləri, şəhərin, qəsəbə və kəndlərin inzibati ərazi nümayəndələri, bələdiyyə sədrləri, sahibkarlar, ziyalılar və ağsaqqalların nümayəndələri dəvət olunmuşdu.

İclasda respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, Millət vəkili Aqiyə Naxçıvanlı, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Rüfət Əliyev iştirak etmişdir.

Tədbirdən öncə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, qonaqlar, rayon abidənin önünə gül dəstələri düzmüşlər. Sonra iştirakçılar mərkəzin foyesində təşkil olunmuş rayonda istehsal olunan yerli sənaye və kənd təsərrüfatı məhsullarından ibarət sərgi ilə tanış olmuşlar.



Hesabat yığıncağını giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev açmışdır. Natiq qeyd etmişdir ki, rayon icra hakimiyyətində ənənəvi olaraq hər il rayonda görülmüş işlərə yekun vurulur və rayon ictimaiyyəti qarşısında hesabat verilir.

Sonra cənab başçı 2015-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi etmişdir. Hesabat məruzəsi "Qəbələ" qəzetinin 18 fevral 2016-cı il tarixli sayında dərc olunmuşdur.

Məruzə ətrafında Qəbələ rayonu üzrə maliyyə idarəsinin rəisi **Namiq Ağayev**, rayon kənd təsərrüfatı idarəsinin rəisi **Rahib Əhmədov**, Vəndam qəsəbə 1 saylı tam orta məktəbin riyaziyyat müəllimi **Zöhrə Mirzəyeva**, "Aqro Kompleks Qəbələ" MMC-nin direktoru **Oqtay Nağıyev**, müalicə diaqnostika mərkəzinin həkimi **Şəhla Məlikova,** sonda isə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi **Rüfət Əliyev**, millət vəkili **Aqiyə Naxçıvanlı**, respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı **Fəttah Heydərov** çıxış etmişlər **(çıxışlar ixtisarla qəzetimizin bu günkü sayında dərc olunur)**.

Yığıncaq iştirakçıları müvafiq qərar və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul etmişlər **(müraciət qəzetimizdə dərc olunur)**.

Ötən il rayonun sosial-iqtisadi inkişafında fərqlənən bir qrup fəal rayon icra hakimiyyəti tərəfindən fəxri fərman və qiymətli hədiyyələrlə təltif edilmişlər.

Tədbiri rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdırmışdır.

Oqtay MƏMMƏDOV.
Fotolar İ. Vəlizadənindir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevə

2015-ci ilin sosial-iqtisadi inkişafının yekunları və 2016-cı ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda Qəbələ rayon ictimaiyyəti nümayəndələrinin

MÜRACİƏTİ

Möhtərəm cənab Prezident!

Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2016-cı ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı dərin məzmunlu nitqinizdə ötən ildə əldə edlən uğurlar hərtərəfli təhlil edilmiş, 2016-cı ildə qarşıda duran vəzifələr geniş qeyd olunmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf xəttinin Sizin tərəfinizdən böyük məharətlə davam etdirilməsinin nəticəsində Azərbaycan sürətli inkişaf yolundadır. Sizin qeyd etdiyiniz kimi, ötən il ölkə iqtisadiyyatı üçün uğurlu il olmuşdur. 2015-ci ildə Azərbaycanın dinamik inkişafı təmin olunmuş, bütün layihələr icra edilmişdir. Ölkəmizdə aparılan islahatlar dərinləşmiş, dövlətimizin beynəlxalq nüfuzu daha da artmışdır. Əlbəttə, bu nailiyyətlərin təməlində uzun illər aparılan düşünülmüş iqtisadi siyasət və məqsədyönlü layihələr dayanır. İqtisadiyyatımızın uğurlu inkişafı, əhalinin sosial müdafiəsinin yüksək səviyyədə təşkili, regional inkişaf proqramının davamlı icrası hər bir ölkə vətəndaşında böyük iftixar hissi doğurur.

Sizin rəhbərliyinizlə əldə edilən nailiyyətlərə görə Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasındadır.

Möhtərəm cənab Prezident!

Uğurla həyata keçirilən sosial-iqtisadi proqramlar ölkəmizin müstəqil siyasətinin davamlı inkişafına, Azərbaycan xalqının milli maraqlarının müdafiəsinə yönəlmişdir. İqtisadiyyatımızın inkişafı mötəbər beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Sizin tərəfinizdən 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi onu deməyə əsas verir ki, cari ildə digər sahələrdə olduğu kimi, bu sahədə də böyük nailiyyətlər əldə ediləcəkdir.

Tarixi "İpək yolunda" yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mənəvi rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınıb. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilib. 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsipinə bu gün də sadiq qalmasının bariz nümunəsidir.

2015-ci ilin yekunları bir daha göstərir ki, ölkəmizin işıqlı sabahına hesablanmış müdrik siyasətiniz Azərbaycan dövlətini, onun müstəqilliyini daha da möhkəmləndirir. Ölkəmizin əsas inkişaf dinamikasını iqtisadi gücümüz müəyyn edir və iqtisadi islahatların dərinləşməsində Azərbaycan böyük uğurlara imza atır.

Əminik ki, Sizin gərgin əməyiniz nəticəsində 2016-cı ildə də respublikamız daha sürətlə inkişaf edəcək, Azərbaycan iqtisadi cəhətdən dünyanın aparıcı dövlətləri sırasında olacaqdır.

Sizin rəhbərliyinizlə həyata keçirilən hərtərəfli islahatlar, ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi, xalqın həyat səviyyəsinin ildən-ilə yüksəldilməsi və Azərbaycanın dünya iqtisadi sistemində mühüm yer tutması Qəbələ rayon ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilir. İnanırıq ki, 2016-cı ildə uğurlarımız daha da artacaq, Azərbaycan beynəlxalq müstəvidə öz mövqelərini daim möhkəmləndirəcəkdir.

Möhtərəm cənab Prezident!

Sizə müstəqil ölkəmizin dinamik inkişafı və xalqımızın daha işıqlı gələcəyi naminə gərgin və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar, uzun ömür, möhkəm cansağlığı arzu edirik!

Tanrı Sizi qorusun!

Müraciət Qəbələ rayon ictimaiyyətinin nümayəndələri tərəfindən 18 fevral 2016-cı il tarixdə 2015-ci ilin yekunlarına həsr olunmuş iclasda qəbul edilmişdir.